# Zəncan - mənim şirin yuxularım

**II hissə**

Zəncana səfərimizin ikinci günündə çox sayda tarixi məkanları ziyarət elədik. Təəssüratlarımı oxucularımızla bölüşmək istərdim.

## Qadınlara hədiyyə

**Zəncanın ən maraqlı və insanların diqqətini çəkən tarixi yerlərindən biri şəhərdəki camaşırxanadır. Hacı Əli Əkbər xan Tofiqinin təxminən 100 il əvvəl tikdirdiyi bu iaşə obyekti nisbətən geniş həyəti və çox böyük paltaryuma zalından, eləcə də gözləmə otaqlarından ibarətdir.**

Bələdçinin məlumatına görə, hacı Əli Əkbər xan ötən əsrin əvvəllərində Bakıda yaşayıb. Hansı ki o illərdə Bakıda kommunist əhval-ruhiyyəsi gündəngünə artırdı. Bəlkə də bu səbəbdəndir ki, Hacı Əli Əkbər bolşeviklərin təsiri altına düşür və inqilabçıların sırasına qatılır. Amma maraqlıdır ki, qəfil Zəncana dönən bu şəxs bolşevik ideologiyasını da elə Bakıdaca unudur və sözün əsl mənasında islamçı və mühafizəkar mövqeyinə qayıdır.

**O zamanlar Zəncanda qadınlar paltar yumaq üçün qışda çayda buzu qıraraq soyuq sudan istifadə edirlərmiş ki, sonda da xəstələnirlərmiş. Ona görə də Tofiqi şəxsi vəsaiti hesabına haqqında söz açdığımız camaşırxananı tikdirir.**

Bir faktı da xatırlayaq ki, Şərq aləmində yenicə yaranmağa başlayan bələdiyyə sistemi o vaxtlar Zəncanda da tətbiq edilib və Hacı Əli Əkbər Tofiqi də başqan imiş. Amma o illərdə ingilis ordusu İranın cənubunu, ruslar isə şimalını işğal edir və təbii ki, Hacı Əli Əkbəri tutub zindana salırlar. Bələdçinin dediklərinə görə, Hacı zindanda da Allaha sevgisindən doymur, hətta oradakı alman milliyyətindən olan bir dustağın islamı qəbul etməsinə səbəb olur. Amma qısa müddətdən sonra ruslar Hacı Əli Əkbər Tofiqini edam edirlər.

## Duzdan çıxan mumiya

**Gün ərzində növbəti səfərimiz Zülfüqari ev muzeyinədir. Bir az bu şəxsin kimliyini öyrənək. O zaman İranda mövcud olan vilayətlərdən sayca beşincisi Zəncan olduğu üçün Xəmsə adlandırılırmış.** Mahmud xan Zülfüqari də o dövrdə Zəncanın hökmdarı olub. Amma İranda İslam inqilabı baş verən kimi Mahmud xan Zülfüqari ABŞ-a qaçır və bir müddət sonra orada dünyasını dəyişir.

Zülfüqarinin yaşadığı saray bu gün Zəncanın ən məşhur muzeylərindən biridir ki, burada arxeoloji qazıntılar zamanı tapılmış eksponatlar sərgilənir. Bu yerdə xatırladaq ki, eksponatlardan ən maraqlısı və turistlərin diqqətini çəkəni duz mədənindən tapılmış mumiyadır. Təxminən 2350 il yaşı olan bu mumiya adam duz mədənində həlak olsa da, duz onu qurudub və günümüzədək tam formada saxlayıb. Bələdçinin dediklərindən: "Burada nümayiş olunan mumiya-adam Zəncanın tarixinin qədimliyinə isbatdır. Bu adamın əynindəki kətan paltar, ayağındakı ayaqqabı formalı çarıq o dövrdə Zəncanda mədəniyyətin inkişaf etdiyini göstərir. Xüsusilə də ayaqqabısı. Hər birimizə bəllidir ki, müasir ayaqqabının yaşı 900 ildir. Amma bu mumiyanın ayağındakı ayaqqabını xatırladan çarıq əslində bu geyimin daha qədimdə mövcud olduğuna sübutdur".

## İtmiş məzarın məqbərəsi

**Sultaniyyə şəhəri Zəncandan çox uzaqda deyil. Bir vaxtlar Ərqun şah tərəfindən salınmış və bu gün 7,5 min əhalisi olan şəhərin tən ortasında, ətrafı hasarlanmış 1,4 hektar ərazidə əzəmətli məqbərə göylərə baş qaldırıb.** Tikilinin tarixindən söz açan bələdçimiz dedi ki, sözügedən məqbərə Çingiz xanın nəvəsi Olcaytay tərəfindən 1334-cü ildə, 10 il ərzində 3 minlik fəhlənin zəhməti bahasına tikdirilib. Məqsəd isə bu olub ki, Həzrət Əlinin məzarını Nəcəfdən bura köçürsün.





Amma o zamanlar buna müsbət yanaşılmayıb və Olcaytayın məqsədi arzu olaraq qalır.

**Haşiyə:** Olcaytay müsəlman xanımının xatirinə islamı qəbul edərək, müsəlman olub. Müsəlman olandan sonra isə adını dəyişdirib və Sultan Məhəmməd Xudabəndi kimi adını tarixə yazdırıb.

Bələdçinin məlumatına əsasən, ortasında çox iri tək günbəz və ətrafında - 8 küncün hər birinin üstündə ucalan eyni sayda minarəsi olan məqbərənin dünyada özü kimi cəmi iki bənzəri var: biri Florensiyadakı Santa Mariya, digəri isə İstanbulda yerləşən Aya Sofya məbədidir. Amma bir fərqləri var ki, onlar daşla tikilib, Sultaniyyə məbədi isə bişmiş kərpiclə.

Sultaniyyə məbədinin iç-içə iki günbəzi var ki, 48,5 metr ucalığındadır. Ancaq maraqlıdır ki, bu qədər nəhəng tikilinin özülünün qalınlığı cəmi yarım metrdir. Tikilib istifadə verilindən bəri keçən 680 il ərzində 5-8 bal gücündə 32 zəlzələ baş verib ki, onların heç biri binanı dağıda bilməyib. Düzdür, xüsusi naxışlarla, yazılarla bəzədilmiş divarların bəzi yerlərində kiçik çatlar yaranıb, amma mütəxəssislərin qənaətincə onlar dağıdıcı təhlükə yaratmır.

**Bildirək ki, qazıntılar zamanı məqbərənin zirzəmisindəki məzar üçün ayrılmış xüsusi guşələrdə heç bir cəsəd qalığına rast gəlinməyib. Buna baxmayaraq güman edilir ki, Sultan Məhəmməd Xudabandinin məzarı məqbərədədir, amma gizlədilib. Məqsəd isə bu olub ki, yadellilərin hücumu zamanı qəbir düşmən əlinə keçməsin.**

Onu da xatırladaq ki, Xudabəndinin ölümündən sonrakı illərdə Zəncana hücum edən düşmənlər məqbərəyə böyük xəsarətlər yetiriblər. Həttə tikilidən şaxələnən yeraltı tunellərin əksəriyyəti doldurulub, binanın iç divarlarında dəyişiklik edilib və sair.

Sonda qeyd edək ki, 22 il əvvəl məqbərənin divarlarına birləşən şəxsi evlər sakinləri başqa yerlərə köçürüləndən sonra sökülüb və müəyyən qazıntı işləri aparılıb. Amma UNESCO-nun qadağalarına əsasən hazırda araşdırma, eləcə də tikilidə təmir-bərpa işləri dayandırılıb. Bunun nəticəsidir ki, məqbərənin ətrafında mövcud olmuş, 9 metrlik 16 bürcün qalıqları dağılmaq təhlükəsi ilə üzləşib.

## Binaları Miranşah dağıtdırıb

**Seyid Əli Şah Təbrizi məqbərəsi də Zəncanın ən görməli yerlərindəndir. UNESCO-nun siyahısına salınmış bu tarixi tikilinin 8 minarəsi, 8 binaya açılan 8 qapısı mövcuddur. Əlbəttə, bu gün minarələr uçub-dağılıb, amma UNESCO icazə** ***vermir ki, dövlət onları bərpa eləsin.***

2004-cü ildə ərazidə aparılan qazıntılar zamanı Elxanilər dövrünə aid 5 min sikkə tapılıb. Amma Teymurilərin Azərbaycana hücumu zamanı binaya böyük



zərər yetirilib. Belə ki, Əmir Teymurun oğlu Miranşahın əmri ilə məqbərə ətrafındakı səkkiz binadan yeddisi dağıdılıb.

Bələdçinin məlumatına görə, ötən il ərzində məbədi ziyarət etmək üçün 200 min turist gəlib. Onlardan yalnız 5 min nəfəri əcnəbi olub ki, daha çox gələnlər fransızlar, almanlar, italiyalılar, yaponlar və polşalılardır. Buna baxmayaraq, bələdçi dedi ki, bu ilin ilk altı ayında məbədə 4 min əcnəbi gəlib, ilin sonunadək isə bu rəqəmin 7 minə çatacağı gözlənilir. Onu da öyrəndik ki, turistlərin hər biri məbədi ziyarət etmək üçün 5 dollar verir. Bu isə ötənilki hesabla ildə bir milyon dollar gəlir deməkdir...

O cümlədən, Cəlaləddin Ruminin oğlu Çələbioğlunun 14-cü əsrdən qalma məqbərəsi də turistlərin sevə-sevə ziyarət etdiyi yerlərdəndir.

*(Ardı var)*

*Vüsal Tağıbəyli*

*Bakı-Ərdəbil-Zəncan-Sultaniyyə*